Beynəlxalq konfrans işini plenar iclasla davam etdirib

Konfransda dövlət başçılarına, beynəlxalq təşkilatlara və dini liderlərə müraciət qəbul olunub

Bakıda keçirilən "2017-İslam həmrəyliyi ili: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfrans işini plenar iclaslarla davam etdirib.

AZƏRTAC xəbər verir ki, plenar iclasın birinci hissəsi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri **Mübariz Qurbanlının** moderatorluğu ilə keçirilib.

Mübariz Qurbanlı bildirib ki, hazırda dünyada bir çox problemlər mövcuddur. Bu problemlərin fonunda din xadimlərinin, alimlərin belə konfranslarda bir araya gələrək müzakirələr aparmalarına, dialoq qurmalarına ehtiyac var. Ona görə də Bakıda başlayan bu proses bundan sonra da davam etdirilməlidir.

Sonra Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin dini işlər üzrə müşaviri **Əli Əbdürrəhman Əl-Haşim** çıxış edərək konfransın əhəmiyyətindən danışıb. O qeyd edib ki, Azərbaycanda bu cür beynəlxalq konfransın keçirilməsi təqdirəlayiqdir. 2017-ci ilin Azərbaycanda "İslam həmrəyliyi ili" elan olunması çox əhəmiyyətlidir. Bununla əlaqədar keçirilən bu beynəlxalq konfrans din, elm xadimlərini bir araya toplayıb və bu, özlüyündə çox böyük bir addımdır. Bu addımın atılması bütün dünya, xüsusilə də İslam aləmi üçün çox əhəmiyyətlidir. Çünki hazırda dünyamız çox çətin bir dövrdən keçir. Bütün İslam aləminin sülh və sabitlik şəraitində yaşaması üçün qarşılıqlı anlaşma və həmrəylik vacibdir. Bu cür beynəlxalq konfranslar sayəsində alimlər birgə əməkdaşlıq edir, dini və milli dözümlülük şəraitində bir-biri ilə anlaşırlar. Əminəm ki, bu konfransdan sonra səmərəli əməkdaşlığın nəticəsini görəcəyik.

Səudiyyə Ərəbistanı Krallığının İslam işləri, dəvət və irşad nazirinin birinci müavini **Tofiq Əl-Sudeyri** qeyd edib ki, İslam dini sonuncu səmavi dindir. İlahi qanunlarda İslam birlikdə yaşamağı tələb edir. İslam alimləri də bunu böyük məsuliyyətlə dərk edirlər. Hazırda dünyada baş verən hadisələr çətin proseslərdən xəbər verir. Bu çətin proseslərin qarşısını almaq üçün bütün müsəlman ölkələri birlikdə hərəkət etməlidirlər. İslam aləminin kifayət qədər imkanları var. Müxtəlif xalqlar və hökumətlər arasında əməkdaşlıq həmrəyliyə, mehribanlığa, sülhə yol açır. Müasir dövrdə İslam həmrəyliyinin yenidən gündəmə gətirilməsi bütün dünya üçün əhəmiyyətlidir.

Daha sonra çıxış edən 77-ci Antakiya Patriarxı **Mar Beçara Boutrus Rai** qeyd edib ki, İslam dünyasında müxtəlif xalqların əməkdaşlığı mühüm əhəmiyyət kəsb edir. Bu gün dünyamızda həmrəylik çox lazımdır. İslam dinini qoruyub saxlamaq üçün həmrəyliyin olması vacibdir. Bu gün dünyada terrorizm kimi mənfi halların qarşısını yalnız həmrəyliklə almaq mümkündür. Terrorizmi yaradan səbəblər arasında savadsızlıq, maddi durumun zəifliyi və s. halları qeyd etmək olar.

Pakistan Senatının sədr müavini **Molana Abdul Qafur Haidari** bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə 2017-ci ili "İslam həmrəyliyi ili" elan etməsi digər İslam ölkələri üçün bir örnəkdir. Bu, müsəlman aləmi üçün çox vacib və əhəmiyyətlidir.

O vurğulayıb ki, Pakistan erməni təcavüzünü hər zaman pisləyir və işğal altındakı Azərbaycan torpaqlarının geri qaytarılmasının tərəfdarıdır. Müsəlman aləmində baş verən haqsızlıqlardan danışan Pakistan Senatının sədr müavini qeyd edib ki, Qüds məsələsində bütün müsəlman ölkələri həmrəy şəkildə hərəkət etməlidirlər.

İRCİCA-nın baş direktoru **Halit Eren** bildirib ki, Azərbaycanda keçirilən bu beynəlxalq konfrans İslam aləmində həmrəyliyin bu günü və gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir. İslam dini bütün dinlərin qardaşlıq, həmrəylik şəraitində yaşamasını tövsiyə edir. Dünyada insanların sülh və sabitlik şəraitində yaşaması üçün həmrəylik vacibdir. İslamın təbliğində həmrəyliyə ehtiyac var.

Özbəkistan Nazirlər Kabineti yanında Dini Məsələlər üzrə Dövlət Komitəsinin sədri **Artukbek Yusupov** qeyd edib ki, bu gün İslam cəmiyyəti bir çox problemlərlə üzləşib. Müsəlman gənclərin radikallaşdırılması qarşımızda duran ən böyük problemlərdən biridir. Bu məsələləri həll etmək üçün İslam ölkələri arasında birgə hərəkət etmək, birlikdə qərar vermək əhəmiyyətli olardı. Bugünkü müasir dünyada islamofobiyanın, terrorizmin yayılmasının qarşısını almaq, təhlükəsizliyi təmin etmək üçün bütün müsəlman ölkələri bir araya gəlməlidirlər.

Əlcəzairin dini işlər və vəqflər naziri **Məhəmməd İsa** "İslam həmrəyliyi ili"nin əhəmiyyətindən danışaraq bildirib ki, bugünkü konfrans həmrəyliyin, sülh və sabitliyin qorunub saxlanmasında müsəlman ölkələrinin birlikdə qərarlar qəbul etməsindən xəbər verir. Həmrəylik bir-birimizə ehtiyac duyduğumuz ən yaxşı şeyi digərinə vermək deməkdir.

Suriya Pravoslav Kilsəsinin Antoxiya və Ümumşərq Patriarxı II **Mar İqnatus Aphram** deyib ki, həmrəylik gələcəkdə birgə yaşamın təməlini qoyacaq. Müsəlmanların və xristianların sülh şəraitində birgəyaşayışı üçün bu, çox mühümdür. Dünyanı terrorizmdən, islamofobiyadan xilas etmək üçün bütün dünya müsəlmanları həmrəy olmalıdırlar. Bütün dinlər insanları sülh şəraitində yaşamağa çağırır. Dinindən, irqindən, dilindən asılı olmayaraq hər kəs qarşılıqlı sülh şəraitində yaşamalıdır.

Özbəkistan Müsəlmanları İdarəsinin sədri, müfti **Usmonxon Alimov** qeyd edib ki, Azərbaycanda bu ilin "İslam həmrəyliyi ili" elan olunması böyük bir təşəbbüsdür və bütün müsəlman aləmi üçün mühüm əhəmiyyətə malikdir. Bu, cəmiyyətimizə müsbət təsir göstərən önəmli addımdır. Bu, bir dini qayğıkeşlik nümunəsidir.

Pakistanın dini işlər naziri **Sərdar Məhəmməd Yusif** diqqətə çatdırıb ki, Prezident İlham Əliyev tərəfindən elan olunmuş "İslam həmrəyliyi ili" çox təqdirəlayiqdir və bütün müsəlman dünyası üçün bir nümunədir. Bugünkü konfrans onu göstərir ki, İslam dini əslində bütün insanlığın dinidir. Allah bütün dinlər arasında qarşılıqlı anlaşmanın olmasını əmr edir. İslam həmrəyliyinə hazırda dünyada çox böyük ehtiyac var.

Amerika Yəhudi Təşkilatları Prezidentlərinin Konfransının icraçı direktoru **Malkolm Honlayn** qeyd edib ki, bu konfransda həmrəyliyə töhfə verəcək insanlarla tanış olduğunu söyləyib. O deyib: "Bu tədbir həm də ondan xəbər verir ki, xristian ölkələri də müsəlman ölkələri ilə əlaqə yaratmalı, əməkdaşlıq etməlidir. Dünyada çaxnaşma yaradacaq hərəkətlərin qarşısını almaq üçün bu, vacibdir".

Misir diyarının müftisi **Şövqi İbrahim Allam** deyib ki, Azərbaycanda başqa dinlərə hörmətlə yanaşılır. Bu, bütün dünyaya nümunə olacaq bir haldır. Hər şeydən əvvəl bütün insanlara bir fərd olaraq yanaşmaq lazımdır. Dinindən, irqindən, dilindən asılı olmayaraq o insana hörmət etmək lazımdır.

Şimali Qafqaz Müsəlmanlarının Koordinasiya Mərkəzinin sədri, Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikası Ruhani İdarəsinin sədri, müfti **İsmayıl Berdiyev** bildirib ki, ilk növbədə, ölkələr arasında çaxnaşmanın qarşısını almaq üçün mütləq dünya dövlətləri qarşılıqlı surətdə anlaşmalıdırlar. Bunun nəticəsində problemlər azalar və sülh, sabitlik şəraiti təmin olunar. O, ABŞ Prezidentinin Qüdslə bağlı qərarının haqsız olduğunu deyib.

Əfqanıstanın həcc və islam işləri naziri **Faiz Osmani** bütün dünya müsəlmanlarının həmrəylik göstərərək bir yerdə hərəkət etməsinin, qərar qəbul etməsinin vacibliyinə toxunub. Bildirib ki, insanların sülh içində yaşaması üçün İslam aləminin önəmli tövsiyələri mövcuddur.

Qüds və Fələstin baş müftisinin müavini **İbrahim Xəlil Məhəmməd Avadallah** bu gün keçirilən beynəlxalq konfransda İslam aləmində baş verən hadisələr barədə ətraflı danışıldığını söyləyib. O qeyd edib ki, Qüds məsələsi təkcə İslam dünyasının deyil, həm də bəşəriyyətin əsas problemidir. Müsəlman dünyası bu məsələdə həmrəy olmalıdır. "Biz sülhün və sabitliyin tərəfdarıyıq. Heç kimin hüququ yoxdur ki, başqasının haqqını tapdalasın", - deyə o qeyd edib.

"Həyatın incəsənəti" beynəlxalq qeyri-hökumət təşkilatının təsisçisi, Şri-Şri Ravi Şankaranın nümayəndəsi **Svami Jyothirmayah** qeyd edib ki, hazırda din pərdəsi altında dünyanın bir çox ölkələrində müharibələr gedir. Bu, dünyanın inkişafını geridə qoyur, təhsil, mədəniyyət, iqtisadiyyat və digər sahələrin inkişafına mane olur.

İslam Əməkdaşlıq Təşkilatı İdman Federasiyasının baş katibi **Mohammad Al-Qarnas** diqqətə çatdırıb ki, İslam dini müxtəlif xalqların sülh, qardaşlıq şəraitində birlikdə yaşamasını tövsiyə edir. Azərbaycanda bu ilin "İslam həmrəyliyi ili" elan olunması onu göstərir ki, İslam dininin təbliği istiqamətində xeyli işlər aparılır, müxtəlif tədbirlər həyata keçirilir.

Qısa fasilədən sonra plenar iclas ikinci hissə ilə davam edib.

İclasa Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti akademik **İsa Həbibbəyli** moderatorluq edib.

ABŞ-ın Simon Vizental Mərkəzinin həmsədri **Abraham Kuper** iclasda çıxış edərək bildirib ki, Azərbaycanın dinlərin qorunmasına necə böyük önəm verdiyinin şahidi olmaq xoşdur. Bu gün biz dinlərin, mədəniyyətlərin qorunduğu bir şəhərdəyik. O, Bakıda müxtəlif məzhəb nümayəndələrinin dostluq şəraitində ibadət etdiklərini, onlara qarşı ayrı-seçkilik olmadığını diqqətə çatdırıb. "Azərbaycan bu nümunəsi ilə bizə birbirimizə qarşı necə diqqətli və qayğıkeş olmağın gərəkliliyini öyrədir", - deyə o vurğulayıb.

Azərbaycan Prezidentinin çıxışında ölkədəki tolerantlıq və multikultural mühitin şahidi olmaq bizim üçün çox xoş oldu.

Bu fikri isə "Rusiya-İslam Dünyası Strateji Görüşü Qrupu"nun əlaqələndiricisi, fövqəladə və səlahiyyətli səfir **Veniamin Popov** bildirib. O, müxtəlif din nümayəndələrinin xoş münasibətlərinin ölkələr arasında da əlaqələrin etibarlılıq müstəvisinə keçməsinə kömək etdiyini qeyd edib.

Bolqarıstanın baş müftisi **Mustafa Hacı** İslam dininin sülh dini olmasını göstərmək üçün böyük imkanların mövcud olduğunu deyib. O, bu işə böyük töhfələr verən Azərbaycan dövlətinə təşəkkürünü bildirib.

Çexiya Elmlər Akademiyasının Qlobal Araşdırmalar Mərkəzinin direktoru **Marek Hrubek** deyib ki, mədəniyyətlərarası dialoq, əslində, insanlar arasında harmoniyanın yaradılması deməkdir. O əlavə edib ki, konfessiyalar arasında müzakirələr, əslində, daha geniş əhatə dairəsinə malik olmalıdır. Marek Hrubekin fikrincə, dialoqun aşağılardan başlaması daha məqsədəuyğundur.

Bobruysk və Bıxovskun yepiskopu (Belarus) **Serafim** Belarusda xristianların və müsəlmanların dostluq şəraitində yaşadığını və bu məsələyə cəmiyyətin həssaslıqla yanaşdığını deyib. "Təəssüf ki, indiki dövrdə ekstremizm İslam dəyərləri adı altında fəaliyyət göstərir. Çox sevindirici haldır ki, Azərbaycanda dini maarifçilik sahəsində böyük işlər həyata keçirilir", - deyə o bildirib.

Mərakeşdə yəhudilər, müsəlmanlar və xristianların öz dini ənənələrini sərbəst şəkildə yaşatdıqlarını deyən Sufi və Estetik Araşdırmalar üzrə Beynəlxalq Akademik Mərkəzinin prezidenti **Əziz Əl-Kubeyti** İdrissi bu baxımdan Azərbaycanla çox oxşar cəhətlərin olduğunu qeyd edib: "Belə bir şəraitin yaranması üçün dövlətin də lazımi işlər görməsi tələb olunur. Hər iki ölkədə həm cəmiyyət, həm də dövlət bu istiqamətdə harmonik fəaliyyət göstərir".

Almaniyadan Dünya Yevangelik Alyansının icraçı sədri **Tomas Şçirrmaçer** Azərbaycanın dini tolerantlıq baxımından maraqlı yer olduğunu deyib. "Burada dini zəmində toqquşmalara rast gəlmək mümkün deyil. Ermənistanın işğalı nəticəsində Azərbaycan müharibə şəraitinə düşüb, məcburi köçkünlər var, ölkə çətinliklərlə üzləşib. Bunlara baxmayaraq, Azərbaycan tolerantlığını qoruyub, burada bütün dinlərə hörmət var. Məhz bu üstünlüklərinə görə Papa Fransisk Azərbaycana səfər etmişdi", - deyə o qeyd edib.

ABŞ Etnik Anlaşma Fondunun sədri ravvin **Mark Şnayer** bu konfransın keçirilməsinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib. "Azərbaycan həmrəylik, dini tolerantlıq məsələlərində bütün müsəlman ölkələri arasında birinci yeri tutur", - deyə o vurğulayıb.

Rusiya Federasiyası Tatarıstan Müsəlmanları Ruhani İdarəsinin sədri, müfti **Kamil Samiqullin** müsəlman gəncləri radikal qurumların təsirindən qorumağın vacibliyini qeyd edib. Onun sözlərinə görə, İslam dünyasının həmrəyliyi üçün bütün müsəlman ölkələri səylərini əsirgəməməlidir.

Böyük Britaniyada fəaliyyət göstərən Oksford İslam Araşdırmaları Mərkəzinin rəhbəri **Fərhan Nizami** bildirib ki, müxtəlif dinlərin nümayəndələri tarixən birlikdə yaşayıblar, amma bu, heç də həmişə sülh şəraitində baş verməyib. Azərbaycan nümunəsində müxtəlifliyin çox uzun illər birlikdə yaşamasını görürük. "Müxtəliflik o deməkdir ki, bizim dini baxışlarımız fərqlidir, amma biz hamımız insanıq, ona görə birlikdə yaşamağı bacarmalıyıq, buna məhkumuq", - deyə o vurğulayıb.

Yaponiya buddist Daijoji Məbədinin baş abbatı və baş rahibi **Ryusin Azuma** Yaponiyada İslam, buddizm və xristian dinlərinin münasibətlərindən, onların yaranması və inkişafından danışıb.

İndoneziya Nahdatul Ulama Fatayat Təşkilatının sədri xanım **Anggia Erma Rini** İndoneziyada dinlər, məzhəblər haqqında məlumat verib.

Sülh Uğrunda Dünya Xalqlar Birliyi Beynəlxalq Təşkilatının təsisçisi **Raçid El Mounacif** insani dəyərlərə üstünlük verməklə harmoniya və tolerantlığın inkişafı istiqamətində daha çox uğura nail olmağın mümkünlüyünü qeyd edib. O, əsasən gəncləri narkotiklərdən, pis əməllərdən və cahilliklərdən qorumaq lazım olduğunu vurğulayıb. "Əsas istiqamətimiz təhsil, təhsil və yenə də təhsildir", - deyə o vurğulayıb.

Rusiya Ruhani Məclisinin başçısı, Moskva müftisi **Albir Krqanov** qeyd edib ki, belə konfransların təşkili cəmiyyətin sağlamlaşdırılması üçün çox faydalıdır. Bu konfrans İslam həmrəyliyi ilə bağlı olsa da, burada bütün dinlərin nümayəndələri toplaşıblar.

Serbiyanın Belqrad şəhərinin müftisi **Mustafa Yusufspahiç** konfransın təşkilinə görə Azərbaycan Prezidentinə, Qafqaz Müsəlmanları İdarəsinə təşəkkür edib. O, çıxışında bütün dinləri birləşdirən dəyərlərin olduğunu və bunlara istiqamətlənməklə daha çox qarşılıqlı anlayışa nail olmağın mümkünlüyünü deyib.

Türkiyənin Diyanət İşləri Başqanı **Əli Ərbaş** konfransın gələcəkdə İslam həmrəyliyinin daha da güclənməsinə öz töhfəsini verəcəyinə əminliyini bildirib.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam **Allahşükür Paşazadə** qeyd edib ki, 2017-ci ilin Prezident İlham Əliyev tərəfindən "İslam həmrəyliyi ili" elan olunmasına dünyanın ehtiyacı var idi - həm müsəlmanların, həm katoliklərin, həm pravoslavların, həm buddistlərin. Bu konfransın böyük əhəmiyyəti var. Biz onun təsirini görəcəyik.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri **Mübariz Qurbanlı** bildirib ki, Prezident İlham Əliyevin himayəsi altında keçirilən bu konfransın vacib nəticələri olacaq. Bundan sonra mədəniyyətlərarası dialoq qismində konfransı davam etdirəcəyik. Yaradılacaq Əlaqələndirmə Şurası ilə birlikdə yeni konfranslar təşkil etmək üzərində çalışacağıq.

Beynəlxalq konfransın iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkür məktubu ünvanlayıblar.

Sonda konfrans iştirakçıları dövlət başçılarına, beynəlxalq təşkilatlara və dini liderlərə müraciət qəbul ediblər.

Müraciətdə qarşılıqlı etimad və anlaşma mühitində mədəni müxtəlifliyin, mədəniyyətlər və dinlərarası dialoqun və bununla bağlı beynəlxalq əməkdaşlığın təşviq edilməsinin sülh və təhlükəsizliyin əsas təminatı kimi çıxış etdiyi vurğulanır. Bu sahədə qlobal təhdid və çağırışların qarşısının alınmasına yönəlmiş, 2008-ci ildən başlamış "Bakı Prosesi"nin və əlaqədar beynəlxalq təşəbbüslərin davam etdirilməsinin və bu istiqamətdə səylərin artırılmasının vacibliyi qeyd edilir. Ayrı-seçkiliyin, ksenofobiyanın, terrorçuluğun, separatizmin, ekstremizmin, eləcə də milli, dini və etnik zəmində dözümsüzlüyün artması, humanitar fəlakət həddində qaçqınların, məcburi köçkünlərin və miqrantların kütləvi axını, habelə terrorçu və separatçı qruplaşmalar tərəfindən dini, mədəni və tarixi sərvətlərin, abidələrin və məbədlərin dağıdılması ilə bağlı dərin narahatlıq bildirilir. İslam həmrəyliyinin mədəniyyətlər və dinlərarası dialoqun inkişafında ümumi bəşəri dəyərlərin dünyada təbliği və gələcək nəsillərə ötürülməsində vacib rol oynadığı vurğulanır.

Konfrans iştirakçıları dövlətləri, BMT və digər beynəlxalq və regional təşkilatları, eləcə də dini liderləri mədəniyyətlər və dinlərarası dialoqun və qarşılıqlı anlaşmanın təşviq olunmasının davam etdirilməsinə və bu sahədə əməkdaşlığın möhkəmləndirilməsinə, milli, dini və etnik zəmində zorakılıq hallarına rəvac verən və zərərli ideologiyaya əsaslanan təbliğatın qarşısının alınmasında əməkdaşlığın artırılmasına, geniş dialoqun davam etdirilməsinə və maarifçiliyin gücləndirilməsinə, siyasi motivlər daşıyan və məqsədyönlü qızışdırılan ksenofobiya və islamofobiyanın, habelə İslam dininin adından sui-istifadə etməklə terrorçuluğun və insanlıq əleyhinə cinayətlərin törədilməsinin qarşısının alınması üçün təsirli tədbirlərin həyata keçirilməsinə çağırırlar.

Bundan başqa, müraciətdə konfrans iştirakçılarının son zamanlar Qüds ətrafında cərəyan edən hadisələrlə bağlı, habelə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə ədalətli həllinə dair mövqeyi öz əksini tapır.

* * *

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə tərəfindən "2017-İslam həmrəyliyi ili: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransın iştirakçılarının şərəfinə ziyafət verilib.